# Qüdrətli saz və söz ustadı

***Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi: "Mən belələrinə əvvəl də cavab vermişəm, bu gün də cavab verirəm və onların hamısına deyirəm ki, bəli, belə yubileylərin hazırlanması, keçirilməsi bizim xalqımız üçün, millətimiz üçün olduqca vacibdir və lazımdır. Bunlar bizim vətəndaşlarımıza, azərbaycanlılara, bu gün yaşayanlara və gələcək nəsillərə göstərir ki, biz kimik, haradan gəlmişik, haradayıq, hara gedirik. Biz beləliklə, özümüz öz varlığımızı, milli köklərimizi dərk edirik. Biz belə yubileylərlə öz keçmişimizə, öz zəngin tariximizə hörmət və ehtiramımızı, qayğı və diqqətimizi ifadə edirik. Biz belə yubileylərlə dost, qardaş ölkələrlə, xalqlarla bir kökə, bir mədəniyyətə, bir milli-mənəvi ənənələrə mənsub olduğumuzu bir daha təsdiq edirik və bugünkü, gələcək nəsillərə nümunə göstəririk".***

Heydər Əliyev ədəbiyyatı həm də xalqı ideoloji cəhətdən oyadan, onu gələcək müstəqilliyə doğru aparan bir sistem kimi qiymətləndirirdi. Və təsadüfi deyildir ki, SSRİ dövründə ulu öndərin mədəniyyətimiz, ədəbiyyatımızla bağlı həyata keçirdiyi tədbirlər, ədəbi və tarixi şəxsiyyətlərimizin - Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, İmadəddin Nəsimin, Nəriman Nərimanovun, Aşıq Ələsgərin və başqa mütəfəkkirlərimizin yubileylərinin qeyd olunması, abidələrinin ucaldılması ülvi məqsədlərə hesablanmışdır. Azərbaycan xalqı da 90-cı illərin əvvəllərində müstəqilliyini bərpa etməklə bu tarixi missiyanın bəhrəsini, nəticəsini gördü.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ata vəsiyyətini təkcə 30 illik işğal altında qalan torpaqlarımızı azad etməklə yerinə yetirmədi, eyni zamanda ədəbiyyatımızı, mədəniyyətimizi, incəsənətimizi qorumaqla, təbliğ etməklə də bu missiyanı yerinə yetirdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq. Bütün xalqımız bu Qələbəni yaxınlaşdırırdı və bütün amillər birləşərək bu müharibənin nəticələrini şərtləndirdi" - fikirlərini biz, eyni zamanda möhtərəm Prezidentimizin hakimiyyəti illərində cərəyan edən digər ədəbi-mədəni hadisələrə də şamil etməliyik.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 30 sentyabr 2024-cü ildə oğlu Heydər Əliyev və Azərbaycanın görkəmli dövlət, elm, ictimai xadimləri ilə Azərbaycan aşıq ədəbiyyatının görkəmli nümayəndələrindən biri Aşıq Ələsgərin Bakının mərkəzində abidəsinin açılışını etməsi də öz növbəsində Azərbaycan Liderinin gələcək strateji hədəflərinin hüdudlarını müəyyən edir.

Möhtərəm Prezidentimizin Aşıq Ələsgər yaradıcılığı, irsi ilə bağlı imzaladığı iki tarixi Sərəncama, Bakının mərkəzi yerlərindən birində əzəmətli abidəsinin ucaldılmasına təkcə ədəbiyyat, mədəniyyət hadisəsi kimi deyil, eyni zamanda Qərbi Azərbaycana qayıdış konsepsiyası kimi də baxmaq lazımdır.

Dövlət başçısı demişdir: "Bu gün Qərbi azərbaycanlıların görkəmli nümayəndəsinin abidəsinin ucaldılması təbii olaraq, ilk növbədə, Aşıq Ələsgərin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir. Ancaq, eyni zamanda bu abidə bütün Qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir. Biz o günü səbirsizliklə gözləyirik, inanırıq, mən də inanıram, siz də inanırsınız. Gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik".

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xalqımızın müqəddəratına yönələn bütün fəaliyyəti bu gün dövlətimizin rəhbəri cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Prezidentimizin rəhbərliyi ilə bu gün ədəbiyyatımız, mədəniyyətimiz özünün ən yüksək inkişaf dövrünü yaşayır.



Təsadüfi deyildir ki, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 800 illik yubileyinə hazırlıq görüldüyü 1940-cı illərdə şairin şəninə oxşar motivlərdə şeirlər həsr olundu. Elə bu məqsədlə də "Nizami Gəncəvi obrazı bədii ədəbiyyatda" adlı monoqrafiya işıq üzü gördü.

**Əlimuxtar MUXTAROV,**
**AMEA Gəncə bölməsi,**
**Nizami Gəncəvi Mərkəzinin direktoru,**
**filologiya üzrə fəlsəfə oktoru.**

Respublika .- 2024.- 3 oktyabr (№ 216). - S.12.